## 22 noyabr – Ədliyyə İşçilərinin Peşə Bayramı Günü

***Azərbaycanda ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi var. Peşə bayramımızı heç vaxt builki qədər sevinclə, təntənə və ifrixarla qarşılamamışdıq. Axı, ədliyyə sisteminin yaranmasının 102-ci ildönümü xalqımız, dövlətimiz, eləcə də dünya azərbaycanlıları üçün çox əlamətdar, müstəqilliyimiz tarixində əbədi olacaq bir günün – Qələbə Gününün xoş təsirindən ayılmadığımız vaxta təsadüf edir. 2020-ci ilin noyabrın 10-u Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı. Məhz həmin gün möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərindəki şanlı qələbəsini rəsmən elan etdi.***

# Ədliyyə işçiləri Prezidentin ətrafında sıx birləşiblər



Noyabrın 10-da müzəffər Ali Baş Komandanımız İlham Əliyevin xalqa verdiyi növbəti müjdə hər kəsin ürəyini dağa döndərdi. Azərbaycan Ordusu öz xilaskar missiyasını uğurla yerinə yetirdi. Söz yox ki, həmin günə qədər işğalçı ölkənin rəhbərliyi üç dəfə ağ bayraq qaldırmış və humanitar atəşkəsə razılığını bildirmişdi. Ancaq, buna baxmayaraq, atəşkəsi yenə də pozmuş, dinc əhalini hədəfə alaraq, cəbhə bölgəsindən xeyli kənarda yerləşən, Dağlıq Qarabağla heç bir əlaqəsi olmayan Azərbaycanın qədim şəhəri olan Gəncəni, eləcə də Mingəçeviri ballistik raketlərdən, müharibə qanunlarına və Cenevrə Konvensiyasına zidd olan kasetli bombalardan atəşə tutmuşdu. Nəticədə çoxlu sayda mülki əhali qətlə yetirildi və yaralandı. Yaşayış məntəqələri və digər obyektlər dağıldı, yararsız hala düşdü. Qətlə yetirilənlər arasında uşaqların, qadınların və qocaların olması Ermənistan rəhbərliyinin faşizm ideologiyasına sadiqliyindən xəbər verirdi. Çünki tarixdən də bəllidir ki, günahsız insanlara qarşı yalnız faşistlər amansız və qəddar olub. Bu gün Ermənistan həmin yolu özünün dövlət siyasətinə çevirib.

Ermənistanın işğal siyasətindən, "böyük Ermənistan" yaratmaq iddiasından əl çəkməməsinə baxmayaraq, 30 ilə yaxın yurd həsrətinə son qoyuldu. İşğaldan azad olunmuş ərazilərimizdəki dağıntılar erməni vandalizminin sübutudur. BMT Təhlükəsizlik Şurası kimi mötəbər bir qurumun və ATƏT-in Minsk qrupu həmsədrlərinin (bu həmsədrlərin dünyanın ən güclü dövlətlərinin olması hər kəsə bəlidir) 27 il ərzində icra edə bilmədiklərini möhtərəm Prezidentimiz 44 gün ərzində yerinə yetirdi.

Məlum olduğu kimi, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarması ilə əlaqədar 4 qətnamə qəbul edib. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürüblər. Ancaq dünyada baş alıb gedən ikili standartlar Ermənistanın işğal siyasətinin qarşısını almaqda ciddi maneə yaratdı.

Bu illər ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altındakı bütün ərazilərindən ermənilərin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərən mənfur qonşularımızın layiqli cavabı verildi. Müzəffər Ali Baş Komandanımız İlham Əliyev həm status-kvonu, həm də təmas xəttini ləğv etdi. Dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində tarixi ədaləti bərpa etdi. İşğal etdikləri torpaqlarımızda "keçilməz sədlər" quran və bu əraziləri qaytarmağı ağlına belə gətirməyən işğalçı ölkə rəhbərliyinə strateji təmkin nümayiş etdirən, Azərbaycanın əzəli torpaqlarını işğaldan azad edəcəyinə bir an belə şübhə etməyən, yeni çağırışlara adekvat cavab verməyə qadir olan müasir dövlət, xüsusən ordu quruculuğuna ciddi önəm verən möhtərəm Prezidentimizin istər cəbhə, istər diplomatiya, istərsə də informasiya sahələrindəki qələbələri ermənilər üçün faciəvi oldu.



Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə, 300-dən artıq kənd, onlarca strateji əhəmiyyətli yüksəklik işğaldan azad olundu. Noyabrın 10-da Azərbaycan Prezidentinin, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə imzaladıqları bəyanat qələbəmizi rəsmiləşdirdi və Ermənistanın rəsmən məğlub olduğunu təsdiqlədi.

Qazanılan bu qələbədə ədliyyə işçilərinin də zəhmət payı var. Bu işdə informasiya mübarizəsinin böyük rolu olduğu hər kəsə bəllidir. Dövlətimizin başçısı dünyanın 30-dan çox aparıcı kütləvi informasiya vasitələrinə müsahibə verərək Ermənistan rəhbərliyinin, eləcə də onun havadarlarının iç üzünü açdı. Ədliyyə naziri cənab Fikrət Məmmədovun Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə bağlı xarici həmkarlarına müraciəti dövlət başçımızın informasiya cəbhəsindəki yorulmaz fəaliyyətinin davamı kimi qiymətləndirilir. Həmin müraciətdə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı ilə bağlı xarici ölkələrin ədliyyə nazirlərinə faktlara istinadən ətraflı məlumat verildi. Müraciətdə qeyd edilirdi ki, 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi milyondan çox insanın taleyinə ciddi təsir göstərmiş faciəvi nəticələrə səbəb olub. Həmçinin respublikamızın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistanın 90-cı illərin əvvəllərində hərbi təcavüzə başladığı, Azərbaycan əhalisinin etnik təmizlənməsini həyata keçirərək Dağlıq Qarabağı və ətraf yeddi rayonu işğal etdiyi, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyi bildirildi.

Həmçinin Prezident İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı bu məsələləri ətraflı şəkildə və təkzibolunmaz faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırdığı da öz əksini tapıb. Hadisələrin pik həddi isə bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin hərbi mövqelərimizi və ən dəhşətlisi, yaşayış məntəqələrimizi və dinc sakinlərimizi qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından atəşə tutmağa başlaması olub. Xüsusilə qeyd edilib ki, Ermənistan ərazisindən endirilən bu zərbələr ölkəmizi cavab zərbəsinə təhrik edərək üçüncü ölkələri hərbi əməliyyatlara cəlb etmək məqsədini daşıyıb.

Müraciətin sonunda ədalət mühakiməsinə və ədliyyəyə məsul şəxs olaraq, həmkarlarının bu məsələdə iştiraksız qalmayacaqlarına və beynəlxalq hüququn görünməmiş pozuntularına qarşı öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görəcəklərinə əminlik ifadə olunub.

Bütün bunlardan sonra qürurla qeyd etmək istərdim ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən biri, ən güclü orduya malik olduğunu bir daha təsdiqlədi. Bu şanlı qələbə 102-ci ilini qeyd etdiyimiz ədliyyə işçilərinin peşə bayramında bizə ən böyük töhfə oldu.

Yeri gəlmişkən, qeyd edim ki, ulu öndər Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən edilmişdir. Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə onların peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək 22 noyabr – 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilməsi üçün ulu öndər Heydər Əliyevə müraciət edilmiş və müdrik şəxsiyyət də bu günü öz sərəncamı ilə rəsmiləşdirmişdir.

Müstəqil dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranma tarixi ilə başlanır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti yaranışını elan edən gün – 1918-ci il may ayının 28-də Ədliyyə Nazirliyi təsis olunmuşdur. Nazirlik öz işinə, ilk növbədə, ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlamışdır. Ondan sonra gərgin və çətin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, ciddi problemlərin yaranmasına baxmayaraq, hüquq ədəbiyyatı kitabxanası və 6 aylıq hüquq kursları təşkil edilmişdir. Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarların qəbul edilməsinə, bu sahədə hüquqi bazanın yaradılmasına nail olunmuşdur. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsinin, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edilməsi bu sahədə irəliyə doğru atılan mühüm addım olmuşdur.

AXC-nin süqutundan sonra – 1920-ci il mayın 13-də Ədliyyə Nazirliyi ləğv edilmiş, əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin, 1930-cu ildə bu komissarlıq da ləğv edilmiş, onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

Müdrik dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Ədliyyə Nazirliyinin yenidən yaradılmasına xüsusi önəm verildi. Ulu öndər respublikamızda qayda-qanunun yaradılmasını, məhkəmə-hüquq sisteminin formalaşdırılmasını, hüquqi bazanın təşkilini dövlət idarəçiliyinin əsas atributlarından biri hesab edirdi. Bütün bunları diqqət mərkəzində saxlayaraq, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələnin əsası qoyuldu. Bundan sonra respublikamızda Ədliyyə Nazirliyinin sabit fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradıldı. Nazirlik tərəfindən məhkəmə orqanlarına təşkilati rəhbərlik həyata keçirilmiş, əhaliyə hüquqi yardım getdikcə yaxşılaşdırılmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılması təmin edilmişdir. İllər keçdikcə ədliyyə işi təkmilləşdiriləræk onun gələcək inkişafı üçün davamlı zəmin yaranmışdır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən və ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirildi, nazirliyin cəmiyyətdə rolu və əhəmiyyəti artdı, səlahiyyəti genişləndi.

Ulu öndər Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinə nail olmasıdır. Bundan sonra Hüquqi İslahat Komissiyasının yaradılması və səmərəli fəaliyyəti nəticəsində məhkəmə və hüquq-mühafizə orqanlarının fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktlarının qəbul edilməsi ədliyyə sisteminin sürətli inkişafına zəmin yaratdı və nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrildi.

Ulu öndər Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı olan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyindən sonra ədliyyə sistemi yeni, müasir mərhələyə qədəm qoydu. Dövlətimizin başçısı tərəfindən nazirliyin yeni əsasnaməsi təsdiq olunaraq, ona hüquq-mühafizə orqanı statusu verildi. Ədliyyə və məhkəmə sisteminin inkişafı və müasirləşdirilməsi barədə proqram xarakterli fərmanların imzalanması, "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun qəbul olunması, ədliyyənin inkişafı üzrə xüsusi Dövlət Proqramının təsdiq edilməsi bu sahənin inkişafına mühüm töhfələr bəxş etdi.

Bütün sahələrdə olduğu kimi, ədliyyə sistemində də əsaslı islahatlar aparıldı və yeni qurumlar yaradıldı, qanunvericilik aktları qəbul edildi. Milli Məclisin 2006-cı il 26 may tarixli iclasında qəbul edilən "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanunu , Prezident İlham Əliyevin 2006-cı il avqustun 17-də imzaladığı "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərman, digər qanunvericilik aktları ədliyyə orqanlarında, idarələrində və təşkilatlarında, penitensiar xidmətdə qulluqkeçmə qaydalarını və şərtlərini, bu orqanların işçilərinin hüquqi vəziyyətinin əsaslarını müəyyənləşdirdi.

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə Azərbaycan ədliyyəsi ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində daha da müasirləşərək yeni-yeni uğurlara imza atmışdır. Ölkə rəhbərinin bu sahəyə xüsusi diqqəti Azərbaycan ədliyyəsinə böyük etimadının və yüksək qayğısının təzahürü olmaqla hər bir ədliyyə və məhkəmə işçisi tərəfindən xüsusi iftixar hissi və dərin rəğbətlə qarşılanmışdır.

Son illər dövlət başçısının təşəbbüsü ilə qəbul edilmiş yeni qanunlarla məhkəmə hakimiyyətinin müstəqilliyi daha da möhkəmləndirilmiş, Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri xeyli genişləndirilmiş, o cümlədən, hakimlərin təyinatında, səlahiyyətlərinə xitam verilməsində, onların fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınmasında, onların yüksək peşəkarlığından digər aidiyyəti sahələrdə də bəhrələnilməsi üçün imkan yaradılmışdır. Möhtərəm Prezidentimizin yüksək diqqətində olduğu daim hiss edilən Azərbaycan ədliyyəsi günbəgün müasirləşir. Nazirlik üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün ardıcıl və məqsədyönlü işlər görür.

Azərbaycanın bütün ədliyyə işçiləri dövlət başçısının ətrafında sıx birləşib. Bu birlik Ermənistan üzərindəki qələbəmizin təmin olunmasında böyük rol oynadı. Möhtərəm Prezidentimizin noyabrın 10-da xalqa müraciətində dediyi sözlər – "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!" hər bir ədliyyə işçisinə peşə bayramında ən qiymətli hədiyyədir.

***Səadət İSMAYILOVA,***
*Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Nərimanov Rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri, hüquq elmləri üzrə fəlsəfə doktoru*